"Təsdiq edirəm"
Naxçıvan MR Ekologiya və Təbii Sərvətlər
Naziri ________________H.S.Yaqubov

NAXÇIVAN MR EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR
NAZİRLİYİNİN MEŞƏ TƏSƏRRÜFATI İDARƏSİNİN
N İ Z A M N A M Ə S İ

## I.Ümumi maddələr

1.1.Meşələrin mühafizəsi və bərpası üzrə meşə təsərrüfatı idarəsi Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 03.12.2001-ci il tarixli 08 saylı əmri ilə yaradılmışdır.
1.2.Müəssisə öz xidməti ərazisində meşələrin qorunub mühafizə edilməsi, onların təbii bərpası, yeni meşə sahələrinin salınması işlərini həyata keçirən dövlət müəssisəsidir.
1.3.Müəssisə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, digər qanunvericilik aktlarını, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əsasnaməsini və bu nizamnaməni rəhbər tutur.
1.4.Müəssisənin xidməti ərazisi Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Naziriyi tərəfindən müəyyən edilmiş hüdudları əhatə edir.
1.5.Müəssisə müvafiq balans operativ idarəçilik hüquqi ilə dövlət mülkiyyətində olan əmlaka üzərində Azərbaycan Dövlət gerbinin təsviri, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin adı və öz adı əks olunmuş möhürə, müvafiq ştampa və blanka malikdir.
1.6.Müəssisə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeçiliyində fəaliyyət göstərir və maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsini habelə və qanunvericiliklə nəzərdə tutulan mənbələr hesabına həyata keçirilir.
1.7.İdarə Naxçıvan şəhərində yerləşir.

## II. Müəssisənin əsas vəzifələri

2.Müəssisənin əsas vəzifələri aşağıdakılardır:
2.1.Meşələrin qorunub mühafizə edilməsini təmin etmək;

2.2.Meşələrdə qanunsuz meşə qırıntılarına yol verilməməsinin,toxum, ot, dərman bitkiləri, meyvə tədarükünün, meşə fondu torpaqlarının qanunsuz istifadə olunmamasının qarşısının alınmasını təmin etmək.

2.3. Meşə qanunvericiliyinin pozulmasına görə meşə fonduna dəymiş ziyanların vaxtında bərpa etdirilməsini təmin etmək;
2.4.Meşələrin qanunsuz qırıntılarından və digər meşə pozuntularından qorunması vəziyətinə mütəmadi və operativ nəzarəti təşkil etmək;
2.5.Meşələrin təbii bərpası məqsədi ilə aqrotexniki, tənzimləyici və digər təbii bərpaya kömək tədbirlərin aparılmasını təmin etmək;
2.6.Təbii bərpanın gedişində qiymətli cinslərin qorunub saxlanmasını və inkişafının təmin edən tədbirlərin həyata keçirilməsini təmin etmək;
2.7.Dövlət Meşə Fondu torpaqlarında kateqoriyadan olan torpaqlarda yerli şəraitə uyğun ağac və kol cinslərin istifadə etməklə yeni meşəliklər salınmasını təşkil etmək;
2.8. Müəyyən edilmiş qaydalara uyğun olaraq meşə yanğınlarına qarşı tədbirlərin həyata keçirilməsini təmin etmək;
2.8.Müəyyən edilmiş qaydalara uyğun olaraq meşələrdə xəstəlik və ziyanvericilərlə mübarizə tədbirlərinin həyata keçirilməsini təmin etmək ;
2.9.Meşə mühafizəsi və bərpası üzrə müəyyən edilmiş qaydada hesabatların verilməsini təmin etmək;
2.10. Ekologiya və Təbii Sərəvətlər Nazirliyi tərəfindən ona həvalə edilmiş digər vəzifələri həyata keçirmək;

## III. Müəssisənin funksiyaları

3.Müəssisə onun qarşısına qoyulmuş vəzifələrə uyğun olaraqaşağıdakı fuksiyaları həyata keçirir;
3.1.Meşələrin qanunsuz qırılmasının,meşə fondu torpaqlarından qanunsuz istifadə olunmasının,meşələrdə özbaşına ot,toxum,dərman bitkiləri,meyvə tədarük edilməsinin,mal –qara otarılmasının qarşısını alır;
3.2.Meşələrin meşəsalma işlərinin müvafiq qaydada təsdiq olunmuş layihələrin tələblərinə uyğun aparılmasına nəzarət edir;
3.4.Meşə əkinlərinin texniki qəbulunun vaxtında aparılmasını təmin edir;
3.2.Müxtəlif torpaq mülkiyyətçiləri ilə bağlanmış müqavilə əsasında tarla qoruyucumeşə zolaqlarının salınmasını təşkil edir;
3.3.Xidməti ərazilərdə olandərə,yarğanvə qumluqlarda,kənd təsərrüfatının istifadəsi üçün yaramayan digər torpaqlarda qoruyucu meşə əkinləri salınmasını təşkil edir;

3.4.Qanunla müəyyən edilmiş qaydada təsdiq olunmuş layihələr əsasında az qiymətli, strukturu pozulmuş,aşağı doluluğu olan meşələrdə rekonstruksiya işləri aparır;
3.5. Qanunla müəyyən edilmiş qaydada meşə toxumçuluq işləri aparır,toxum tədərük edir,yerli şəraitə uyğun cinslərdən tinkliklər yaradır,öz tələblərini ödəməklə kənara satış üçün materialı yetişdirir;
3.6.Meşə əkinləricinslərinin rayonlaşmasına və qabaqcıl elmi texniki nailiyyətlərə əsaslanaraq yeni meşəliklər salarkən tezböyüyən qiymətli ağac və kol cinslərindən istifadə etməklə öhdəsində olan meşə sahələrinin cins tərkibinin yaxşılaşdırılmasını təmin edir;
3.7.Elmi tədqiqat və şöbə quruluşu işlərinin aparılmasına lazımikömək göstərməklə, təsərrüfat üçün öyrənilməsi vacib olan məsələləri qaldırır;
3.8.Xidmət ərazisində meşə sahələrində müəyyən edilmiş qaydada rekreasiya və turizm xidmətini təşkil edir;
3.9.Meşələrə zərər vurmadan meşədən əlavə istifadə etmək,yardımçı istehsal sahələriniinkşaf etdirməklə meşə yeyinti məhsullarının tədərükü, emalını və satışını təşkil edir;
3.10.Ağır və çətin meşə təsərrüfatı işlərinin mexanizasiyasını təşkil edir;
3.11.Müəyyən edilmiş qaydada ona təhkim edilmiş ərazidə faunanın qorunmasını təşkil etməklə, həmin ərazidə ovçuluq qaydalarına əməl edilməsinə nəzarət edir;
3.12.Müəyyən edilmiş qaydalara uyğun olaraq meşə mühafizə xidmətini təşkil etməklə, onun odlu silah, döyüş formaları, rabitə və nəqliyyat vasitələri ilə təmin edir;
3.13.Meşə təsərrüfatı sahəsində ölkə daxilində və xaricində olan qabaqcıl təcrübəni və texnologiyanı öyrənir,öz şəraitinə uyğunlaşdıraraq tətbiq edir,səmərələşdiriliciyin vəixtiraçılığın inkişafı üçün tədbirlər görür;
3.14.Müəyyən edilmiş qaydada meşə fondu kadastrını və monitorinqinin və meşə quruluşu işinin aparılmasını təşkil edir;
3.15. Müəyyən edilmiş qaydada sərəncamda olan bütün maliyyə, texniki və sair imkanlardan istifadə edərək işçilərin sosial müdafiəsini gücləndirmək üçün kompleks tədbirlər işləyib həyata keçirir;
3.16.Qüvvədə olan qanunvericiliyə uyğun olaraq istehsalat sanitariyasına və texniki təhlükəsizlik qaydalarına əməl olunmasını təmin edir;
3.17.Meşə gözətçisi meşənin mühafizəsini təşkil edir, odlu silah, geyim formaları, rabitə və nəqliyyat vasitələri ilə təmin edilir.Güzəştli qaydada otlaq,biçənək,yanacaq üçün güzəştli qiymətə odun satılması nəzərdə tutulur;
3.18.Dövlət Meşə fondu torpaqları dövlətə mənsubdur və özəlləşdirilmir.
3.19.Meşə fondu sahələrində fiziki və hüquqi şəxslərin istifadə hüquqları müqavilələr vasitəsilə həyata keçirilir. İcarəyə verilən sahələrin sərhədləri

icarə müddəti və onun ödəmə müddəti Azərbaycan meşə qanunvericiliyi və nəzərdə tutulmuş başqa sərvətlər tərəflərin razılığı ilə imzalanır;
3.20.Meşələrin vəziyyətinə, bərpasına təsir edən obyektlər tikinti yerlərinin seçilməsi baş idarə ilə razılaşdırılır;
3.21.Naxçıvan MR Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ona həvalə edilmiş vəzifələrin icrası məqsədi ilə digər funksiyaları həyata keçirir;

## IV.Müəssisənin hüquqları.

4. Müəssisə öz vəzifə və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir ;
4.1.Səlahiyyətləri daxilində hüquqi və fiziki şəxslərdən arayış və məlumatlar tələb etmək;
4.2.Xidməti ərazisində və digər kateqoriyadan olan torpaqlarda müəyyən edilmiş qaydada yerli şəraitə uyğun ağac və kol cinslərindən meşəsalma işlərini aparmaq;
4.3.Müxtəlif torpaq mülkiyyətçiləri ilə bağlanmış müqavilələr əsasında meşələrin salınmasını təşkil etmək;
4.4.Reklam məlumat xarakterli xidmətlər göstərilməsini təşkil etmək;
4.5.Yanğından mühafizə üzrə müvafiq təşkilatlarla birgə təcrübələr planı hazırlamaq;
4.6.Müəyyən edilmiş qaydada müvəqqəti boş olan meşə sahələrini qısa və uzun müddətli istifadəyə vermək,yeni meşə sahəsi yaratmaq ;
4.7.Qanunvericilikdə müəyyən edilmiş digər hüquqları həyata keçirmək;

## V. Müəssisənin fəaliyyətinin təşkili ;

5.1. Müəssisənin strukturu müəyyən edilmiş qaydada təşkil edilmiş meşə gözətçilərdən ibarətdir;
5.2. Müəssisənin fəaliyyətini bilavasitə müəssisənin rəhbərliyi,direktoru həyata keçirir;
5.2.1 Müəssisənin direktoru:
-Müəssisənin fəaliyyətini təşkil edir,müəssisənin tabe strukturlarının faliyyətini əlaqələndirir;
-Öz səlahiyyətləri daxilində müəssisənin bütün işçilərinə şamil edilən əmr, sərəncam və gözətçilər verilir;
-Müəssisənin fəaliyyəti ilə bağlı qanunvericiliklə və bu nizamnamə ilə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirir;

5.3.Müəssisənin direktoru tutduğu vəzifəyə uyğun olaraq müəssisələrin xidmət ərazisində meşələrin vəziyyəti, istifadəsi, qorunması və təkrar istehsalı üzrə böyük dövlət müfəttişidir;
5.4. Müəssisənin direktoru meşə fondunun vəziyyətinə və ondan səmərəli istifadə edilməsinə, meşələrin təkrar istehsalına, qorunub mühafizə edilməsinə, müəssisənin təsərrüfat fəailəyitinin nəticələrinə görə məsuliyyət daşıyır;
5.5. Müəssisənin direktoru mövcud qanunvericiliyə uyğun və bu nizamnamədə müəyyən edilmiş hüquqlara malikdir;
5.6. Müəssisənin direktoru Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında əsasnaməyə uyğun olaraq Nazir tərəfindən vəzifəyə təyin olunur və azad olunur;
5.7.Müəssisənin baş meşəçisi (direktor müavini) vəzifəyə müəssisənin direktorunun təqdimatı əsasinda nazir tərəfindən təyin və azad olunur;
5.8.Müəssisənin təsərrüfat işərinin yerinə yetirilməsi, müəssisənin struktur bölmələri (meşə ustaları) vasitəsilə həyata keçirilir;
5.9.Rayonlar üzrə meşə sahələri müəyyən edilmiş qaydada təşkil olunmuş meşə dolaylarından ibarətdir;
5.10.Meşə sahələrinin işinə bilavasitə rəhbərlik baş meşəçi tərəfindən həyata keçirilir;
5.11.Meşə dolayılarında meşələrin mühafizəsi və qorunması işi meşə gözətçiləri tərəfindən həyata keçirilir;
5.11.Meşə ustası müəssisə direktoru tərəfindən vəzifəyə təyin və azad olunur;
5.12.Baş meşəçiyə aşağıdakılar həvalə olunur;
5.12.1.Müəyyən edilmiş qaydada meşə quruluşu sənədlərində cari dəyişikliklərin edilməsi və texniki sənədləşmənin araşdırılması;
5.12.2.Müəyyən edilmiş qaydada meşələrin qorunub mühafizə olunması, bərpası və digər işlərin araşdırılmasının təmin edilməsi;
5.13.Meşə ustası aşağıdakılara birbaşa məsuliyyət daşıyır;
5.13.1.Meşə fondunun saxlanılmasına;
5.13.2.Meşələrin qorunub mühafizə olunmasına və təkrar istehsalına ;
5.13.3.Meşə sahələrinin ərazisində meşə təsərrüfatı işlərinin saxlanılmasında texniki təhlükəsizlik qaydalarına əməl edilməsinə;

## VI. Müəssisənin əmlakı və maliyyə vəsaitləri

6.1.Müəssisə dövlət büdcəsindən maliyyələşdirilir:
6.2.Müəssisənin əmlakı onun fondlarından, dövriyələrindən və onun balansında olan digər qiymətlərdən ibarətdir:

6.3.Müəssisə cəlb edilmiş vəsaitlər hesabına meşə qanunvericiliyinin pozulmasından idarəyə toplanmış vəsait meşəbərpa işlərinə və işçilərin həvəsləndirilməsinə, yeni meşələr salınmasına sərf edilə bilər.
6.4.Müəssisənin maliyə işlərinin aparılması mövcud qanunvericiliyə uyğun qaydada baş mühasib tərəfindən yerinə yetirilir.
6.5.Müəssisənin baş mühasibi vəzifəyə nazir tərəfindən direktorun təqdimatı əsasında təyin olunur və azad olunur.

## VII. Müəssisənin təşkili və ləğv edilməsi

7.1.Müəssisənin təşkili və ləğv edilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qaydada həyata keçirilir.